

# Uğur hekayəsindən başlanan yüksəliş yolu

## Valeriya Kovalyova: "Bal rəqslərinə həvəsim erkən yaşlarımda yaranıb"

**Nə az, nə çox, düz 11 ildir ki, Valeriya Kovalyova Bakıdakı 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzində rəqsin ən maraqlı və mürəkkəb növü olan bal rəqsinin sirlərinə dərindən yiyələnir. Özünün söylədiyinə görə o, rəqsin bütün növlərinin, demək olar ki, mahir ifaçısıdır, ancaq bal rəqsi lap uşaqlıq illərindən onun hobbisi olub. Televiziya kanallarında bal rəqsi ifa edən cütlükləri görən kimi o da öz kuklasını qucağına alıb və onlarla bərabər həmin rəqsi evdə ifa edib. Bunu görən valideynləri sevimli qızlarını mərkəzə gətiriblər və rəhbərlikdən xahiş ediblər ki, Valeriyanın istedad və bacarığını, məharətini nəzərdən keçirsinlər. Mərkəzin müəllimi Məryəm Quliyeva əvvəlcə Valeriya ilə rəqs barədə söhbət edib, nə üçün məhz rəqsin bu növünü seçdiyi ilə maraqlanıb. O, cavabında bildirib ki, rəqsin bütün növlərini sevir, xüsusilə milli rəqslərimizi, ancaq bal rəqsi onun vahid seçimidir. Təbii olaraq Məryəm müəllim həvəskar qızcığazı ruhlandıraraq bal rəqsinin üstün, eyni zamanda maraqlı cəhətləri barədə ətraflı məlumat verib və onu öz dərnəyinə üzv yazıb.**

Məryəm Quliyeva rəqsin bu növünü öz yetirməsinə daha böyük coşqu ilə sevdirməyə nail olub, həm də onu bu illər ərzində gərgin zəhmət bahasına mahir bal rəqsi ifaçısına çevirə bilib. Valeriyanın ötən bu illər ərzində qazandığı uğurların sayı artıq kifayət qədərdir. Mərkəzin qatıldığı elə rəqs müsabiqəsi olmayıb ki, Valeriya orada iştirak edənlər sırasında öncüllərdən olmasın və uğur qazanmasın.

Artıq mərkəzin fəxri üzvü statusunu qazanan rəqqasəyə, "Uğurların barədə oxucularımıza ən çox hansı məqamları çatdırmaq istərdin?" sualıma Valeriya belə cavab verdi: "Danışmağa utanıram. Müəllimimdən soruşun".

Məryəm müəllim bizim söhbətimizin iştirakçısı və öz yetirməsinin təvazökarlığına yaxından bələd olduğu üçün xoş bir təbəssüm nümayiş etdirdi, sonra isə, eyb etməz, mən danışaram, deyib, Valeriyanın bal rəqsi müsabiqələrində imza atdığı nailiyyətlər barədə yaddaşını vərəqləyib qısa da olsa əsas məqamları söyləyə bildi.

Müxtəlif vaxtlarda beynəlxalq yarışlara qatılaraq qələbə əldə edib. Belə ki,- Valeriya Gurcustanda keçirilən "World Open Tournament Batumi Open-2014" müsabiqəsində III, 2016-cı ildə İdman bal rəqsləri uzrə Bakı şəhər çempionatında I yerlərə layiq görülüb. Bolqarıstanda keçirilən festivalda istirak edərək fəxri fərmanla geri dönüb. 2018-ci ildə isə idman bal rəqsləri üzrə Azərbaycan Kubokunda I, "Olkə cempionatı-2019"-da II yerləri tutub. "Azərbaycan Fristayl Kuboku-2019" uğrunda Azərbaycan çempionatında I yerə, eyniadlı növbəti yarışmada gümüş medala layiq görülüb.

Valeriya Kovalyova Heydər Əliyev Fondunun "Buta Palace"da keçirdiyi bütün tədbirlərə dəvətli olur və hər dəfə də Mərkəzin kollektivinə sevinc bəxş edir. İstər ölkədaxili, istərsə də beynəlxalq rəqs yarışmalarında qazandığı nailiyyətlər isə onun uğur hekayəsinin əsasında dayanır və sənətin zirvəsinə doğru aparan yüksəliş yoluna işıq salır.

**Sifai SƏFƏROVA**